HAQQIN SÖZÜ–SÖZÜN HAQQI.

# Yeni YOL

15 iyul 2015-ci il
№003 (03)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “გზა” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## KOSOVADA TÜRK DİLİ RƏSMİ STATUS ALDI

Bu günlərdə informasiya agentliklərinin yaydığı məlumata görə,Kosovadakı 40-a yaxın bələdiyyədə doğum haqqında şəhadətnamənin, vətəndaşlıq və nikah sənədlərinin albanca, serbcə və ingiliscə ilə yanaşı türk dilində də verilməsinə başlanıb. Xarici KİV-in verdiyi xəbərə görə, bununla da, türkcə Kosovoda 4-cü rəsmi dil statusu qazanıb.



Məlumatda qeyd olunur ki, kosovalı türklərin uzun illər sənədlərdə türk dilinin tətbiq olunması istəyi qanuniləşdirilib. Keçən həftədən etibarən Kosovodakı 40-a yaxın bələdiyyədə artıq doğum haqqında şəhadətnamənin, vətəndaşlıq, nikah sənədlərinin albanca, serbcə və ingiliscə ilə eyni zamanda türk dilində də verilməsinə başlanıb.

Kosova rsmilərindən olan Taner Güclütürk bu müjdəni xalqla paylaşıb. Artıq Kosovanın türk vətəndaşları üçün hər hansı problemin olmayacağını bildirib.

## 17 İYUL DÜNYA MÜSƏLMANLARININ MÜQƏDDƏS RAMAZAN BAYRAMIDIR

İyulun 17-də dünya müsəlmanları müqəddəs Ramzan bayramını qeyd edəcəklər. Ramazan ayı boyunca oruc tutmaqla müsəlmanlar islam dininin beş vacib ehkamından birini yerinə yetirirlər. Ramazan ayının başa çatması ilə üç günlük bayram tədbirləri həyata keçirilir. Ramazan ayı ərzində və Bayram günlərində müsəlmanlar bir-birinə qarşı münasibətdə gülərüzlü, xoş davranışlı olub, qarşılıqlı yardımlar edirlər. Bayram günlərində hər bir müsəlman yaxınlarına baş çəkib, bayramlaşır.




Fürsətdən istifadə edib “Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı” və “Yeni Yol” qəzetinin kollektivi olaraq biz də bütün müsəlmanları müqəddəs Ramazan bayramı münasibətilə təbrik edir, dünyamızda əmin-amanlığın və sülhün bərqərar olmasını arzulayırıq.

Ramazan bayramınız mübarək!

## BAKIDA GUAM-IN KOMİTƏ İCLASI KEÇİRİLİB



İyulun 8-də Bakıda Ümumdünya Gömrük Təşkilatının potensialının gücləndirilməsi üzrə regional ofisində GUAM ölkələrində ticarət və daşınmaların həyata keçirilməsi üzrə rəhbər komitəsinin 22-ci iclası keçirilmişdir. Tədbirdə GUAM-a üzv olan ölkələrin nümayəndələri iştirak etmişlər.

Azərbaycan Dövlət gömrük komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev qeyd etmişdir ki, gömrük xidməti istənilən müstəqil dövlətin iqtisadiyyatının əsasını təşkil edir. Gömrük xidmətləri arasındakı əməkdaşlıq barədə danışan Aydın Əliyev qeyd etmişdir ki, bu əlaqələrin inkişaf etdirilməsində əməkdaşlığın böyük əhəmiyyəti var. Beynəlxalq gömrük təşkilatı və digər beynəlxalq təşkilatlar öncədən informasiya mübadiləsi edilməsinə böyük diqqət ayırırlar. Komitə sədri iclas çərçivəsində imzalanacaq sənədin əhəmiyyəti haqqında danışmışdır.

Iclasa sədrlik edən GUAM-ın iqtisadi inkişaf və demokratiya uğrunda təşkilatının baş katibi Valeri Çeçelaşvili görüşü faydalı diskussiya adlandıraraq, qeyd etmişdir ki, aparılan müzakirələr GUAM çərçivəsində əməkdaşlığın inkişafına ciddi töhfə verəcək. İclasda nümayəndə heyətlərinin rəhbərlərinin çıxışları dinlənilmişdir. Müzakirələrdən sonra GUAM üzvü olan ölkələrin gömrük orqanları arasında bu ölkələrin sərhəddindən keçən nəqliyyat vasitələri və mallar barədə əvvəlcədən məlumat mübadiləsinin təşkili haqqında protokol imzalanmışdır.

Tədbirin sonunda iştirakçılar GUAM-da ticarət və daşınmaların həyata keçirilməsi üzrə rəhbər komitənin 22-ci iclasının protokolunun imzalanmasını həyata keçirmişlər.

## GÜRCÜSTAN PREZİDENTİ GENDER BƏRABƏRLİYİNƏ GÖRƏ MÜKAFAT ALDI

Gürcüstan prezident administrasiyasının mətbuat xidmətinin iyulun 7-də verdiyi məlumata görə, BMT-nın inkişaf proqramının sədr müavini Şombi Şarp Gürcüstan prezidenti Qeorqi Marqvelaşviliyə gender bərabərliyinin inkişafındakı xidmətlərinə görə, xüsusi mükafat təqdim etmişdir.



Prezident Gürcüstanda dördüncü dəfədir keçirilən gender bərabərliyi müsabiqəsi çərçivəsində mükafatlandırma mərasimində fəxri qonaq kimi iştirak etmişdir. Gürcüstanda fəaliyyət göstərən ictimai sahənin şirkət və təşkilatlarının qatıldığı müsabiqə BMT-nin “Gürcüstanda gender bərabərliyinə kömək” birgə proqramı çərçivəsində keçmişdir.

Şombi Şarp 2015-ci ilin qadın və gender bərabərliyi ili elan olunmasına görə Marqvelaşviliyə təşəkkür etmişdir. Şombi Şarp qeyd etmişdir ki, Marqvelaşvili bu istiqamətdə müxtəlif layihələrin həyata keçirilməsinə yardımçı olmuşdur.

Marqvelaşvili bildirmişdir: “Ölkəmizdə fəallıq göstərən BMT-nin inkişaf proqramına təşəkkür etmək istəyirəm. Bu fəaliyyət Gürcüstanın uğurlu, müasir ölkə kimi inkişafı üçün, eləcə də bizim qorumalı olduğumuz gürcü xalqının öz həqiqi dəyərlərinə qayıtması üçün vacibdir. Bununla mən qadınalara hörməti və onların cəmiyyətdəki rolunu nəzərdə tuturam”. Onun sözlərinə görə, “qadına şiddət yaramaz, Gürcüstanda zorakılıq, qətl və qadınların amansızlıqla qətlini əks etdirən keçən ilki dəhşətli statistikanın olması qəbuledilməzdir”.

Gürcüstan prezidenti qadınların ölkədə rolunun gücləndirilməsi üçün qanunvericilikdə dəyişiklik edilməsinin vacibliyini də vurğulamışdır.

Daha sonra Qeorqi Marqvelaşvili fikrinə bu sözlərlə davam etmişdir: “Mən dəfələrlə seçki məcəlləsində qadınların hüquq bərabərliyi istiqamətində atılan addımları dəstəkləmişəm. Ümid edirəm ki, parlamentdə buna təkcə qadınlar deyil, kişi deputatlar da tərəfdar olacaqlar”.

## AZƏRBAYCAN, GÜRCÜSTAN, TÜRKİYƏ VƏ UKRAYNA AVİASİYA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ EDƏCƏK



İyulun 13-də Azərbaycan, Gürcüstan, Türkiyə və Ukrayna mülki aviasiya strukturları həmrəylik haqqında memorandum imzalamışlar. Beynəlxalq mülki aviasiya təşkilatı çərçivəsində əməkdaşlıq və nümayəndəlik üzrə həmrəylik haqqında memorandumu Türkiyənin baş mülki aviasiya idarəsində Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov imzalamışdır. Bu barədə Azərbaycanın Türkiyədəki səfirliyinin məlumatında bildirilmişdir.

Sənəd Azərbaycan Dövlət mülki aviasiya idarəsi, Türkiyə baş mülki aviasiya idarəsi, Gürcüstan mülki aviasiya agentliyi və Ukrayna Dövlət avasiya idarəsi arasında əməkdaşlığı nəzərdə tutur.

## TBİLİSİDƏ “UNİVERSİTET” METRO STANSİYASININ TİKİNTİSİ DAVAM ETDİRİLƏCƏK

Gürcüstan iqtisadi və sabit inkişaf nazirliyinin munisipal inkişaf fondu Tbilisidə “Universitet” metro stansiyasının tikintisinə başlayır.

Fonddan bildirmişlər: “Yeni, sayca 23-cü metro stansiyasının tikintisi Vake-Saburtalo rayonunda başlayacaq və iki il ərzində başa çatacaq”.

Layihənin gerçəkləşməsi nəticəsində Tbilisidə yeni metro stansiyası meydana çıxacaq. Tikinti işlərinin dəyəri 83 milyon laridən və ya 38 milyon dollardan çoxdur. Tikintini Asiya inkişaf bankı maliyyələşdirəcək.

Əsası 1966-cı ildə qoyulmuş Tbilisi metropolitenində 2000-ci ildə sonuncu stansiya açıldıqdan sonra 22 stansiyanın xətlərinin ümumi uzunluğu 26,3 km olmuşdur. Hazırda Tbilisi metropoliteni böyüklüyünə görə Cənubi Qafqazda Bakı metrosundan sonra ikincidir.

“Universitet” metro stansiyasının tikintisinə 1990-cı ildə başlanılsa da, sonradan tikinti işləri dayandırılmışdır.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

# İDMANI SİYASƏTƏ ÇEVİRMƏK İSTƏYƏNLƏRLƏ SÖHBƏT

**Olur belə hadisələr. Bu, təkcə Tiflisdə yox, Qəbələdə yox dünyanın çox yerində rast gəlinən biabırçılıqdır. Bunu hamı bilir, elə həmin hadisənin müəllifləri də bilməmiş olmazlar. Beyni qızmış azarkeş bununla qəhrəmanlıqmı yazdığını güman edir, ya bununla vətənpərvərmi olduğunu sübuta yetirmək istəyir və ya başqa xoş olmayan bir məqsədi-məramımı var, bax buna cavab vermək elə də asan deyil. Onlar niyə bu qəhrəmanlıq istəklərini başqa yerlərdə, Gürcüstanın, Azərbaycanın adını yüksəltmək sahəsində gerçəkləşdirmirlər. Bax, bunu anlamaq çətindir.**

İdmanın xalqlar arsında dostluq körpüsü olmasından istənilən qədər misal gətirə bilərik. Qədim Afinada Olimpiya oyunları zamanı müharibə edən yunan polislərinin həmin müddətdə silahı yerə qoyduqları da tarix dərsliklərindən hamıya bəllidir.

İndi hansısa bir ağıldankəm götürüb, quyuya bir daş atıb, biz də azərbaycanlı-gürcülü oturub tədbir tökürük ki, necə edək ağıldankəm birinin quyuya atdığı daşı çıxaraq. Biz qaş düzəlltdiyimiz yerdə olan gözümüzü də bada vermirik ki? Bunu deməkdə, nə dərəcədə haqlı olduğumu heç özüm də ayrıd edə bilmirəm. Nədən ki, hansısa üç-beş ağılsızın etdiyi hərəkətə görə, bir neçə gündür ki, ictimai-siyasi gündəm istismar olunur. İstər Azərbaycanda, istər də Gürcüstanda qarşılıqlı ittihamlar səslənməyə başlayıb. Məqam gözləyən araqarışdıranlar, qırx qazanın çalasısı olanlar köhnə palan içi tökməyə başlayıblar. Bunları da bir yana qoyaq, Heç olmamış kimi davranaq. Axı bizim başqa dərdimiz-azarımız yoxdurmu? İstər Azərbaycanın, istər də Gürcüstanın həll etməli nə qədər müşgülləri var, cənablar?

Tarixdə dövlətlərin yaranması, inkişafı və hətta məhvini çoxlarımız bilirik. Dövlətlər yaranır, sonra da sərhədlərini genişləndirir, özünün qüdrətli bir çağını yaşıyır. Elə Gürcüstanın tarixində də buna bənzər hadisələrlə rastlaşmaq mümkündür. Qurucu Davidlə başlayıb Georgi Laşa ilə başa çatan, monqolların gəlişi ilə başqa yön alan dövrü kim inkar edə bilər? Ölkənin azad olunmasında Qurucu Davidin qıpçaqlarla birgə hərəkət etdiyini, çariçə Tamara zamanında Qutlu Arslan kimi bir qıpşaq türkünün darbazidə söz sahibi olmasını da bildiklərimizin üstünə gələk. Elə həmin Davidin Tiflisin müsəlman əhlinə göstərdiyi lütfkarlığı nə tez unutdunuz, cənablar? Tarixdə çox şeylər olub. XII yüzillikdə Gürcüstan öz qızıl əsrini yaşayıb. Bunu heç kim inkar edə bilməz. Hətta müəyyən zamanlarda Azərbaycanın Şirvan adlı dövlətinin Gürcüstandan vassal asılılığı da olub. Ancaq bunlar keçmişdə qalıb, tarixə çevrilib. Hanı dünyaya meydan oxuyan Roma, hanı mədəniyyəti, iqtisadi-hərbi gücü ilə dünyanı idarə edən Ellada? Yeri gəlmişkən, bu gücün varisləri, Yunanıstanı deyirəm, bu gün acınacaqlı durumdadırlar. Hanı Makedoniyalı İskəndərin böyük dövləti? Hanı Atillanın hun imperatorluğu? Xilafət qurub dünyanı idarə edən ərəblərin indiki durumundan dərs çıxarmaq olmazmı? Konkvistadorların tonqallarında fiziki məhvə məhkum edilmiş inklər, asteklər öz vətənlərində heç də azadlıq nə olduğunu bimirlər. Bu kiçik tarixi ekskurs, fikrimizcə, kifayət edər ki, torpaq iddialarından əl çəkək. Belə olmasa inandırım ki, dünya qan gölündə boğulacaq. Bu dünya hamımızındır. Tarixdə xalqların böyük köçləri, miqrasiyaları olub və bu prosesdə xalqların böyük toqquşmaları baş verib. Bu proseslər qanlarla, dağıntılarla tarixin yaddaşına keçib. Qarşıdurmalar, toqquşmalar, müharibələr yeni dövlətlərin yaranmasına, bir qisminin tarix səhnəsindən silinməsinə gətirib çıxarıb. Yeni sərhədlər cızılıb, dünya zaman-zaman dəyişik şəkillərdə qarşımıza çıxıb.

Biz hamımız – xristianımız da, müsəlmanımız da bir atadan, bir anadan yaranmamışıqmı? Axı bunu bizə İncil də, Quran da diqtə edir. Bunu da kənara qoyaq. Biz niyə tariximizin müsbət anlarından danışmayaq. Niyə II Ereklinin, - mən bilərəkdən gürcülərin ifadə tərzini seçib Erekli yazıram, İrakli yox, – Şərq musiqisinə vurğunluğunu qabartmayaq, niyə gürcü aşıqlarının türkcə oxumalarını yada salmayaq? Krtsanisi savaşında gürcülərlə birgə olan Borçalı igidlərini unutmaq olarmı? Bu gün hansısa bir ağzına gücü yetməyən Qax-Zaqatala istəyəcək və əvəzində Borçalı məsələsi ortaya çıxacaq. Onsuz da kifayət qədər dərdi olan Gürcüstan üçün üçüncü, daha doğrusu dördüncü bir müşgülü kimlərdir yaradan? Elə Azərbaycan üçün də yeni bir münaqişə bölgəsinin yaradılması kimlərinsə dəyirmanına su tökmək deyilmi? Marığa yatan qüvvələr elə bunu gözləmirlərmi?

**Yaxşı ki, sağlam düşüncə deyilən bir fikir mövcuddur. Hadisəyə rəsmi və qeyri-rəsmi münasibət bildirənlərin demək olar ki, hamısı baş verənlərin ölkələrimizin düşmənlərinin xeyrinə olduğunu, bəlkə də bu qazanın elə onların təhriki ilə qaynadıldığını dilə gətirmələrini araqarışdıranlara və onların havadarlarına vurulan tərs sillə hesab edirəm. Və inanıram ki, əksəriyyət də bu fikirdədir.**

# BAŞ NAZİR FUTBOLDA BAŞ VERƏN HADİSƏYƏ GÖRƏ ÇAXNAŞMAYA DÜŞMƏMƏYƏ ÇAĞIRDI



Gürcüstanın baş naziri İrakli Qaribaşvili Azərbaycanda "Qəbələ" və "Dinamo" arasındakı oyunda baş vermiş hadisəni fitnəkarlıq adlandırıb. Baş nazirin sözlərinə görə, bu, ölkələr arasındakı münasibətlərə təsir etmir.

Qaribaşvili qeyd etmişdir ki, bu cür avantüristlər bütün ölkələrdə var. Ona görə də Gürcüstan buna əhəmiyyət verməməlidir.

İrakli Qaribaşvili fikrini bu sözlərlə davam etdirmişdir: "Hay-küy lazım deyil. Bu cür fitnəkarlıq idmançılar üçün xarakterikdir, sizə deyim ki, fitnəkar qruplar bütün ölkələrdə fəaliyyət göstərirlər. Xatırladığınız kimi gizlicə göndərilmiş fitnəkar qruplar o vaxt Gürcüstanın adından hərəkət edirdilər. Hazırda isə eyni hadisə Azərbaycanın adından təkrarlanır. Bu adi fitnəkarlıqdır və bu cür fitnəkarlıqlar, təbii ki, bizim dostluq münasibətlərimizə heç cür təsir etmir.

Bizim ölkəmizdə fitnəkarlar və avantüristlər olduğu kimi, onlarda da var. Bütün ölkələrdə bu cür adamlar var. Ona görə də biz bunlara əhəmiyyət verməməliyik, tərəqqini və inkişafı davam etdirməliyik".

Xatırladaq ki, İrakli Qaribaşvili Tbilisidə baş verən hadisələr zamanı da buna bənzər fikirlər səsləndirmişdir.

# QARİBAŞVİLİ: DÖVLƏT QULLUĞU KARYERAYA ƏSASLANMALIDIR

Baş nazir İrakli Qaribaşvili iyulun 3-də hökumətin iclasında demişdir: "Gürcüstanda karyeraya əsaslanacaq peşəkar ictimai qulluq yaradılmalıdır".

Nazirlər kabineti Gürcüstanda ictimai qulluq islahatı haqqında qanun layihəsini müzakirə etmişdir. Bu layihənin yaxınlarda parlamentə daxil olacağı gözlənilir.

Qaribaşvili bəyan etmişdir: "Bu misilsiz və inqilabi islahatdır. Sistem bir dəfəlik və həmişəlik qaydaya salınacaq. Ciddi, peşəkar, Avropa sayağı, müasir, sivil ictimai qulluq yaradılacaq".

Qaribaşvili demişdir: "Əvvəlki hakimiyyətin dövründə insanların mənsəb pilləsində yüksəlməsi peşəkarlığa görə yox, yalnız siyasi əlamətlərə görə baş verirdi. Adamlar siyasi mənsubiyyətlərinə görə tez-tez işdən çıxarılırdı. Biz buna bir dəfəlik və həmişəlik son qoymalıyıq".

Baş nazir görülmüş işlərə görə, İctimai xidmət bürosunun rəhbəri Eka Kardavaya və hökumət administrasıyasının başçısı Maya Çkitişviliyə təşəkkür etmiş, eləcə də Aİ-nin və ABŞ-ın beynəlxalq inkişaf agentliyinin (USAİD) qanun layihəsinin hazırlanmasındakı rolunu qeyd etmişdir. Qaribaşvilinin sözlərinə görə, Aİ ilə viza rejiminin liberallaşdırılmasını nəzərdə tutan fəaliyyət planına əsasən Gürcüstan üzərinə düşən öhdəlikləri vaxtından əvvəl yerinə yetirir. Bu öhdəliklər ictimai qulluq islahatını da nəzərdə tutur.

# ATƏT PA VACİB QƏTNAMƏ QƏBUL ETDİ




İyulun 7-də Finlandiyanın paytaxtı Helsinkidə ATƏT PA-nın 24-cü illik yay sessiyasında ATƏT PA-nın Siyasi Məsələr və Təhlükəsizlik Komitəsinin sədr müavini, Azərbaycanın millət vəkili Azay Quliyevin müəllifi olduğu "ATƏT regionundakı dövlətlərarası münasibətlərdə Helsinki prinsiplərinə sadiqlik" adlı qətnamə qəbul olunub.

19 maddədən ibarət olan qətnamədə Azərbaycan, Gürcüstan, Moldova və Ukraynada mövcud münaqişələrdən ciddi narahatlıq və bu münaqişələrin yalnız beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə də həmin dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin dəyişilməzliyi prinsipləri əsasında həll edilməsinin vacibliyi vurğulanır.

Qətnamədə hər bir dövlətin sərhədlərinin, ərazi bütövlüyünün toxunulmazlığı və ərazilərin güc yolu ilə qəsb olunmasının qəbuledilməzliyi bildirilir.

Qətnamənin ən əhəmiyyətli maddələrindən biri də odur ki, sənəddə xalqların öz müqəddəratını təyinetmə hüququnun dövlətlərin ərazi bütövlüyünün pozulması hesabına və ya suverenliyinin, siyasi müstəqilliyinin əleyhinə olaraq həyata keçirilməsi yolverilməz hesab edilir.

ATƏT Parlament Assambleyası bu qətnaməni qəbul etməklə ilk dəfə olaraq Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını açıq və bir mənalı olaraq müdafiə etmiş oldu.

## BATUMİDƏ YENİ DƏMİRYOL STANSİYASI AÇILIB




İyulun 7-də Gürcüstanın baş naziri Batumidə yeni dəmiryolu stansiyasının açılışını edib. Bundan sonra qatarla Batumiyə gələn sərnişinlər birbaşa şəhərdə qatardan enəcəklər. Əvvəl son stansiya Batumi ətrafında yerləşən Maxincauri idi. Sərnişinlər buradan şəhərədək şəhər nəqliyyatı ilə çatdırılırdılar.

Qaribaşvili bəyan etmişdir: "Batumiyə dəmiryolu yenidən qayıdır. Bu, dincəlməyə gələnlər üçün, orada yaşayanlar üçün çox gərəklidir. Bu binanın açılışından sonra istirahətçilərə Maxincauri əvəzinə birbaşa Batumiyə gəlmək imkanı veriləcək. Əsas odur ki, qiymətlər əvvəlki tək qalır, heç nə dəyişməyəcək. Bu, vətəndaşlarımız üçün, istirahət edənlərimiz üçün lazımdır. Bu, Batumi üçün, Acara üçün gərəkli investisiyadır. Bu, "Əməkdaşlıq fondu" və dəmiryolunun maliyyələşdirdiyi birgə layihədir".

Baş nazir Batuminin və ümumilikdə Acaranın turizm potensialına da diqqət yetirmişdir. Onun sözlərinə görə, burada istirahət edənləri qarşıda iki unudulmaz ay gözləyir.

İrakli Qaribaşvili fikrinə bu cür davam etmişdir: "Hər gün Acaraya istirahətə gələn minlərlə yeni turist görürük. Biz dövlət olaraq infrastrukturun inkişafına maksimum kömək etməliyik. Batumi həm də çox vacib tranzit şəhərdir. Buna görə də biz hər vasitə ilə infrastrukturun inkişafına yardım etməliyik. Acarada kurort və turist mövsümü artıq öz yüksək nöqtəsinə çatmaqdadır. Əhaliyə və istirahətə gələnlərə "Hot Batumi 2015"-in başlamasını bildirmək istəyirəm. "Hot Batumi" müxtəlif əyləncəli tədbir və festivalları əhatə edir".

Baş nazir qeyd etmişdir ki, Batumi inkişafını davam etdirir. Həm hökumət, həm də özəl sektor bir çox gərəkli birgə layihələr həyata keçirməkdədir.

## ევროკავშირმა საქართველოს სახელმწიფო ბიუჯეტში 6 მილიონ ევროს ოდენობის ტრანშის გადარიცხვა დაამტკიცა

ევროკავშირმა დაამტკიცა 6 მილიონ ევროიანი ტრანში, პირველი გადარიცხვა "ღრმა და ყოვლისმომცველი თავისუფალი სავაჭრო სივრცისა და მცირე და საშუალო ბიზნესის ხელშეწყობის" საბიუჯეტო დახმარების პროგრამის ფარგლებში. საქართველოში ევროკავშირის წარმომადგენლობის ინფორმაციით, ევროკავშირმა დაამტკიცა საქართველოს სახელმწიფო ბიუჯეტში 6 მილიონ ევროს ოდენობის ტრანშის გადარიცხვა. ეს თანხა წარმოადგენს პირველ გადარიცხვას ევროკავშირის მიერ დაფინანსებული 45 მილიონ ევროიანი "ევროკავშირსა და საქართველოს შორის ღრმა და ყოვლისმომცველი თავისუფალი სავაჭრო სივრცისა (DCFTA) და მცირე და საშუალო ბიზნესის ხელშეწყობის" პროგრამის საბიუჯეტო დახმარების კომპონენტის ფარგლებში.

## AVROPA İTTİFAQI GÜRCÜSTAN DÖVLƏT BÜDCƏSİNƏ 6 MİLYON AVRO DƏYƏRİNDƏ TRANŞ KÖÇÜRÜLMƏSİNİ TƏSDİQLƏYİB

Avropa İttifaqı "dərin və hərtərəfli azad ticarət mühiti və orta biznesə şərait yaradılması" – büdcəyə yardım proqramı çərçivəsində 6 milyon avroluq birinci köçürməni təsdiqləyib. Avropa İttifaqının Gürcüstan nümayəndəliyinin məlumatına görə, Avropa İttifaqı Gürcüstan dövlət büdcəsinə 6 milyon avro dəyərində tranş köçürülməsini təsdiqləyib. Bu məbləğ, Avropa İttifaqı tərəfindən maliyyələşdirilən 45 milyon avroluq " Avropa İttifaqı və Gürcüstan arasında dərin və hərtərəfli azad ticarət mühiti və orta biznesə şərait yaradılması" – büdcəyə yardım proqramı çərçivəsində ilk köçürmədir.

## 2015-Cİ İLİN İLK BEŞ AYI ƏRZİNDƏ AZƏRBAYCANDAN GÜRCÜSTANA 580 810 NƏFƏR GƏLİB




Bu ilin yanvar-iyun aylarında Azərbaycandan Gürcüstana 580810 nəfər gəlib. Keçən ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycandan gələnlərin sayında 8,5% artım nəzərə çarpır.

Bu barədə Gürcüstan daxili işlər nazirliyinin dövlət sərhəddini keçən xarici vətəndaşların statistika məlumatında bildirilib. DİN-nin məlumatında qeyd olunub ki, ilin əvvəlindən Gürcüstana gələn xarici qonaqların sayı 2,5 milyon nəfər təşkil edib.

Statistikaya görə, yanvar-iyun aylarında Türkiyədən gələnlərin sayı 605153 nəfər olmaqla, siyahıda birincidirlər. Siyahıda ikinci yeri Azərbaycan tutur. İlin əvvəlindən iyina kimi Azərbaycandan Gürcüstana 580810 nəfər gəlib və bu keçən ilin müvafiq dövrü ilə müqayisədə 8,5% çoxluq təşkil edib. Bu dövrdə ölkəmizə gələn Ermənistan vətəndaşlarının sayı 543810 nəfər olub. Rusiyadan gələnlərin sayı isə 342416 min nəfər təşkil edib ki, bu da, keçən illə müqayisədə 14,7% çoxdur. Ukrayna vətəndaşları isə 55271 nəfəri təşkil edib. Bu isə keçən ilin eyni dövrü ilə müqayisədə 10,5% azdır.

Avropa İttifaqından ölkəmizə gələnlərin sayı 95741 nəfəri təşkil edib ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 6,1% çoxdur.

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com



## İQTİSADİYYATDA TURİZMİN PAYI VƏ ONUN İNKİŞAF PRESPEKTİVLƏRİ

**Turizm insanların istirahətinin ən geniş yayılmış və ən kütləvi növüdür. Hər il milyonlarla insan dincəlmək üçün yerli və xarici istirahət məkanlarına üz tutur. Səyahət etmək həvəsi son 20-25 il ərzində insanların vərdiş etdikləri həyat tələbatına çevrilmişdir.**

İnkişaf sürətinə və gəlirlərə görə bu sahə ümumdünya üzrə iqtisadiyyatın digər sahələrini üstələyərək neft, neft məhsulları ticarəti və avtomobil satışlarından sonra 3-cü yeri tutur. Beynəlxalq Turizm Təşkilatının (WTO) açıqladığı statistik məlumata əsasən, dünya kapitalının 7%-i turizm sektorunda cəmləşib. Bundan başqa, dünya xidmətləri satış bazarının 30% -i turizmin payına düşür. Əgər 2000-ci ildə dünya üzrə turizm gəliri 500 milyard, 2009 -cu ildə 850 milyard dollar olmuşdursa, 2014-cü ildə isə bu rəqəm 1,2 trilyon dolları ötüb keçmişdir. Səyahət edənlərin sosial toplum sayındakı artım tempi də diqqəti cəlb etməkdədir. 2010-cu ildə dünya üzrə 1 milyard turist səfəri qeydə alındığı halda, WTO 2020-ci ildə onların sayının 1,5 milyardı ötüb keçəcəyini proqnozlaşdırır. Ona görə də hər gün keçdikcə, iqdisadi maraq və mənfəət baxımından bu sektora qoyulan sərmayələrin inkişaf dinamikası sürətlə artmaqda davam edir. Adətən, təbii sərvətlər baxımından zəngin olmayan dövlətlər turizm sektorunu ölkə iqtisadiyyatının lokomotivinə çevirməkdə maraqlıdırlar. Çünki, konkret dövlətə turist simasında təşrif buyurmuş çoxsaylı əcnəbilər məhz burada xərcləyəcəkləri pullarla həmin ölkənin iqdisadiyyatına öz töhfələrini vermiş olurlar.

Ona görə də, son zamanlar Gürcüstanın da haqlı olaraq sözügedən sahəyə marağı genişlənməkdədir. Bunun üçün ölkəmizdə hər cür şərait mövcuddur. Gürcüstanın relyef rəngarəngliyi, müxtəlif iqlim qurşaqları üçün xarakterik olan temperatur göstəricilərinə malik olması turizm sektorunun inkişafına imkan verir. Həmçinin, dini, tarixi mədəniyyət abidələri ilə yanaşı müalicəvi sanatoriya mərkəzlərinin çoxluğu xarici turistlərin marağını çəkməkdədir. Turizm indisturiyasını modernləşdirmək üçün infrastrukurun bütün sahələrinin yüksək səviyyədə olması şərtdir. Sevindirici haldir ki, bir o qədər də əskikliklərimiz yoxdur. Son onillikdə Gürcüstanın bir çox açıq muzey tipli şəhərləri – Mestia, Sıqnaxi, Msxeta köklü surətdə təmir edilmişdir. İnfrastrukturun üst səviyyədə olmasından başqa, xarici turistlərin diqqət yetirdiyi əsas faktor onlarin gedəcəyi ölkədə cangüvənliyi və təhlükəsizliklərinin maksimum dərəcədə olmasıdır. Turist qəbul edən digər dövlətlərlə müqayisədə ərzaq və xidmət qiymətlərinin o qədər də baha olmaması Gürcüstanın üstünlüklərindəndir. Məhz deyilənlərə əsas kimi son illər ölkəmizə gələn turislərin sayındakı nəzərəçarpacaq artım diqqətdən qaçmamalıdır. Belə ki, əgər 2012-ci ildə Gürcüstana 4,5 milyon əcnəbi qonaq gəlmişdirsə, bu anoloji göstərici 2014-cü ildə 6 milyona yaxın olmuşdur. Hökumətin söhbətini açdığımız sektora olan marağı diqqət çəkəndir. Baş Nazir İrakli Qaribaşvili "Merkuri" otelinin açlışı zamanı qeyd etmişdir ki, hal-hazırda Gürcüstanda 85 yeni mehmanxananın tikilintisi davam etməkdədir. Onlardan 15-i paytaxtda, 70-i isə əyalətlərdə tikilməkdədir.

Digər tərəfdən turizm sektorunda uğur əldə etmiş ölkələrin də təcrübəsindən də yararlanmaq ölkəmiz üçün faydalı olardı. Konkret olaraq Türkiyənin qeyd olunan sahədəki nəaliyyətlərini vurğulamaq yerinə düşər. Belə ki, 1980-ci ildə Türkiyəyə cəmi 1,5 milyon xarici ziyarətçi gəldiyi halda, bu göstərici son ildə 30 milyonu ötüb keçmiş və ölkə iqtisadiyyatına 22 milyard dollar fayda vermişdir.

**Turizm sektorunu dövlətin əsas xarici gəlir mənbəyinə çevirmək Gürcüstanın iqtisadi strategiyasının təməl prinsipinə çevrilməlidir. Bu sahədə uğur qazanmış dünyaca məşhur brend şirkətləri ölkədə turizm sektorunun inkişafına cəlb etmək gərəkdir. Nəticə isə minlərcə yeni iş yerlərinin açılması, ölkəyə daxil olacaq milyardlarla pul deməkdir.**



Cambul Məmmədli
cmemmedli@mail.ru

# YENİ SƏDUM ŞƏHƏRLƏRİ YARANACAQ?!.

**Zaman-zaman insanlar çızından çıxanda Tanrı onları müxtəlif yollarla cəzalandırır. Yolunu azmışların tamamilə məhv edildiyi hallar da olmuşdur. Necə ki, Lut peyğəmbərin dövründə əxlaqsızlar belə bir cəzaya məruz qalmışdılar. Lut qövmü də peyğəmbərinin xəbərdarlıqlarını qulaqardına vuraraq, əxlaqsızlıq, iyrənclik və inkarçılıq bataqlığından əl çəkməmiş, nəticədə məskunlaşdıqları Sədum (Sodom) və Qomorra şəhərləri məhvedici fəlakətlə üzləşmiş və yer üzündən silinmişdir. Bir qrup tarixçi alim bir neçə illik axtarışdan sonra İordaniya ərazisində Lutun lənətlənmiş tayfasının sonuncu şəhəri olan Sədumun izlərini aşkar edib, üzə çıxarmışdır. Həmin şəhərin yerində hazırda heç bir canlı yaşamayan dəniz əmələ gəlmişdir ki, adı da elə “Ölü dəniz”dir. Şəhər qalıqlarından bəlli olur ki, homoseksuallığın geniş yayıldığı azğın Lut qövmünün həyat səviyyəsi də, bu iyrəncliyin geniş yayıldığı indiki ABŞ və Avropada olduğu kimi olduqca yüksək olmuşdur...**

İyunun 26-da ABŞ-ın Ali Məhkəməsi bütün ölkə ərazisində eynicinslilərin nikah hüququnu təmin edib, prezident Barak Obama isə bu qərarı Amerikanın böyük “qələbə”si adlandırıb. Məlumat üçün, üzdəniraqların nikahları bu gün dünyanın 20 ölkəsində, Meksikanın bir neçə ştatında, Böyük Britaniya ərazisinin əksər hissəsində rəsmiləşdirilib. Bu cür nikahlar ilk dəfə 2001-ci ildə Hollandiyada leqallaşdırılıb. Əslinə qalsa, dünyanın o biri ucunda kim nə edir, nə deyir bizlərə nə dəxli var deyib üstündən keçmək də olardı. Ancaq iş orasındadır ki, bütün dünya ölkələrində olduğu kimi, keçmiş SSRİ dövlətlərində də həmcinsbazlığı dəstəkləyən LGBT təşkilatları var və onlara müəyyən qüvvələr tərəfindən, o cümlədən ABŞ-dan da çox ciddi dəstək verilir. Üstəlik də B. Obama bütün dünyada eynicinslilərin evlənməsinin qanuniləşməsini yayacağını bəyan edir. Üzdəniraqların, bidürüstlərin, yeni pederastların (bir dostum “Pederast” sözünün “Bidürüst”dən törədiyini iddia edir) dəstəkçisi olan ABŞ və Avropa dövlətləri indi də bizlərdən həmcinsbazlığın rəsmən dəstəklənməsini israrla tələb etməyəcəkmi?

Vəziyyəti ciddiləşdirən amillərdən biri də QHT və dövlət məmurları arasında bu qəbildən olanların da yer almasıdır. “Güclü qadın, güclü dövlət” adlı QHT-nin təsisçisi və rəhbəri L. Moroşkinanın fikrincə, Gürcüstan ictimaiyyəti çox homofobiq imiş, yəni “Gürcüstan eynicinslilərin evlənməsi üçün hazır deyil”; ABŞ-ın Ali Məhkəməsi tərəfindən eynicinslilərin nikah hüququnun təmin edilməsini Gürcüstan Parlamentinin Respublikaçılar fraksiyasının üzvü Tamar Kordzaia “bu, insan haqları sahəsində irəli atılmış addımdır” kimi qiymətləndirib. İndiyənə qədər gizlicə “fəaliyyətdə” olan bəzi beynidevrilmiş, oriyentasiyasını dəyişmiş zavallı adamcıqların bir qisminin artıq kimliklərini gizlətməkdən çəkinməmələri və az qala fəxr etmələri, bu məsələdə onları qınayanlara “geridə qalmış”, “sivilizasiyadan uzaq”, “homofob” və bənzər yarlıqlarla “damğa” vumaları nəyi vəd edir, əcəba?

Yenə sağ olsun Baş Nazirimiz İ. Ğaribaşvili: “Mən Baş Nazir və Gürcüstanın bir sıravi vətəndaşı kimi, Konstitusiyamızda evliliyin və ailənin qadın-kişi birliyindən ibarət olması barədə əlimdən gələni edəcəm” dedi! Bəli, Uca Yaradanın bəzi qarğanmış, zavallı məxluqları hər şeyi əldə etdikdən sonra həyatın mənasını da bu kimi iyrəncliklərdə görür və öz “tapdanmış hüquqlarının” da müdafiəsinə çalışır.

**Baxmayaraq ki, demokratiya, Avropa dəyərləri, tolerantlıq, insan haqları, mədəniyyətlərarası dialoq və bir sıra bu sayaq terminlərlə gözə kül üfürən, özlərinin simasızlıqlarını, abırsızlıqlarını bizlərə transfer etməyə çalışanlar və dünyanın da qloballaşması nəticəsində ar-namusdan əl götürmüş əyri yolun yolçuları var, Allaha şükür, yenə də Qafqaz İNSANI o dərəcədə cılızlaşmayıb ki, bənzər “qanunlara” yaşıl işıq yandırsın!**

## ƏDLİYYƏ NAZİRİ: HAZIRKI QANUN NİKAHI KİŞİ VƏ QADIN ARASINDA MÜNASİBƏT KİMİ MÜƏYYƏNLƏŞDİRİR



Gürcüstanın ədliyyə naziri Tea Sulukiani baş nazirin nikahın qadın və kişi arasında münasibət olmasını müəyyən edəcək müddəanı konstitusiyaya daxil etmək istəməsi ilə bağlı verdiyi bəyanatı şərh etmişdir. Nazirin sözlərinə görə, o, belə bir düzəlişin əleyhinə deyil, lakin hakim komandanın ölkənin əsas qanununa düzəliş daxil etmək üçün lazım olan konstitusiya çoxluğu yoxdur. Sulukiani həmçinin qeyd etmişdir ki, fəaliyyətdə olan Vətəndaş məcəlləsində qeyd olunub ki, ailə qadın kişi münasibətidir. Bu səbəbdən də qanun fəaliyyətdədir və hazırkı dövrdə o dəyişməyəcək. Çünki cəmiyyətdə eynicinslilər arasında nikahı mümkün görən konsensus yoxdur.

Sulukiani bəyan etmişdir: “Bu gün bizim vətəndaş qanunvericiliyində aydın şəkildə yazılmışdır ki, Gürcüstanda ailə qadın və kişinin birliyidir. Əgər baş nazir bunu Konstitusiya səviyyəsinə qaldırmaq istəyirsə, mən bunun əleyhinə deyiləm, sadəcə bizdə Konstitusiya çoxluğu yoxdur.

Eynicinslilərin evliliyini qanuniləşdirən ölkələrdə qanun bu sahədə ictimai konsensusun necə olmasından asılı olaraq yaradılır. Hələlik Gürcüstanda belə konsensus olmadığından heç bir hakimiyyət, o cümlədən də bizim hakimiyyət bu qanunu dəyişmək üçün bir addım da ata bilməz. Fəaliyyətdə olan qanun ailənin kişi və qadından ibarət olduğunu, Gürcüstanda ailənin belə qalacağını təsdiqləyir. O səbəbdən ki, ölkəmizdə gürcü cəmiyyəti ailəyə məhz bu cür baxır”.

Gürcüstanın baş naziri İrakli Qaribaşvili “Asaval-dasavali” qəzetinə verdiyi müsahibədə bir Gürcüstan vətəndaşı kimi ölkə konstitusiyasına ailənin qadın və kişinin birliyi olması haqqında düzəliş əlavə edilməsi üçün əlindən gələni əsirgəməyəcəyini bəyan etmişdir.

## MÜBARIZ QURBANLI: AZƏRBAYCANDA EYNİCİNSLİ İNSANLARIN NİKAHINA HEÇ ZAMAN İCAZƏ VERİLƏ BİLMƏZ



"Tolerantlıq öz mövqeyindən imtina etmək deyil. İndi tolerantıq deyə Avropada, Amerikada bəşəriyyət əleyhinə, Allah əleyhinə, insanlıq əleyhinə olan hərəkətləri biz də təkrar etməliyikmi?"

Bunu Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

Mübariz Qurbanlı qeyd edib ki, düzdür, Azərbaycan multikultural və tolerant ölkədir. Bu baxımdan o, bütün dünyaya nümunə ola bilər. Amma tolerantlığın da bir sərhədi var və bəzi məsələlərdə o sərhədi aşmaq olmaz: "Demokratiyanın tərifində deyildiyi kimi, mənim tolerantlığım sizin tolerantlığınızın sərhədində bitməlidir. Tolerantlıq öz mövqeyindən imtina etmək deyil. İndi tolerantıq deyə Avropada, Amerikada bəşəriyyət əleyhinə, Allah əleyhinə, insanlıq əleyhinə olan hərəkətləri biz də təkrar etməliyikmi? Məsələn, eynicinslilərin nikahına biz də icazə verməliyikmi? Biz də bunu təkrar etməliyikmi? Xeyr, etməməliyik! Heç vaxt etməməliyik! Biz tolerant ola bilərik, amma onun da bir yerə qədər sərhəddi var".

Xatırladaq ki, eyni cinsdən olanların ailə qurmasına dünya ölkələrində fərqli münasibət mövcuddur.

## YOL NƏQLİYYAT HADİSƏLƏRİNİN SAYI ARTIB



Gürcüstanda avtomobilləri sərxoş vəziyyətdə idarə etməyə görə tədbirlərin sərtləşdirilməsinə baxmayaraq, son zamanlar sürücülərin sərxoşluğu ucbatından baş verən avtoqəzaların sayı artmaqdadır. Cəzalar 2013-cü ildə sərtləşdirilsə də, 2014-cü ildə bu növ qəzalar artaraq 262 olmuşdur. 2013-cü ildə isə onların sayı 228 idi. Buna baxmayaraq, 2014-cü ildə bu qəzada ölənlərin sayı azalaraq, 16 nəfərə düşmüşdür. 2013-cü ildə isə bu növ qəzaların qurbanları 27 nəfər idi.

Sərxoş sürücülərə qarşı yeni cəzalar avtomobillərin sərxoş vəziyyətdə idarə olunmasının azalmasına gətirib çıxarmamışdır. Ölüm hallarının azalmasına gəlincə, ola bilsin ki, bu, 2010-cu ilin sonlarında təhlükəsizlik kəmərlərinin bağlanması haqqında qanunun qüvvəyə minməsi ilə bağlıdır.

Sürücülərin özləri də etiraf edirlər ki, əvvəlki illərlə müqayisədə axşam saatlarında avtomobil hərəkətinə nəzarət zəifləyib. Onların sözlərinə görə, əvvəllər polislər sürücüləri restoran və ya barlardan çıxan zaman saxlayırdılar, indisə belə hadisə demək olar ki, baş vermir.

Sərxoş vəziyyətdə avtomobillərin idarə olunmasına qarşı cəzalar 2013-cü ildə sərtləşdirilib. İnzibati məcəlləyə edilən dəyişiklərə əsasən, indi sərxoş vəziyyətdə idarə etməyə görə ilk dəfə saxlanılan sürücülərə əvvəl olduğu kimi cərimə yazılmır, 6 ay müddətinə sürücülük hüququndan məhrum edilir. Hadisə təkrarlandıqda cəza da ağırlaşdırılır və sürücüyə 700 lari cərimə yazılır, o, 1 il müddətinə sürücülük hüququndan məhrum edilir. Üçüncü dəfə isə cərimə 1000 lariyə çatır, sürücülük hüququndan məhrum edilmə isə 2 il müddətinə qədər uzadılır.

## İNCƏSƏNƏTƏ RƏĞBƏT YARATMAQ ÜÇÜN NƏ ETMƏLİYİK?

İlk müasir insanın yarandığı dövrdən indiyə kimi yaradıcılıq insanların ayrılmaz bir parçası olmaqdadır. Quşların yuva düzəltməsi nə qədər təbiidirsə, insanlar üçün də incəsənət o qədər təbii fəaliyyətdir. Gördüyümüz bütün gözəl binaların, avtomobillərin, işlətdiyimiz bütün elektron əşyaların dizaynında biləvasitə rəssamların əməyi var. Rəsm, heykəl, musiqi, opera, teatır və.s kimi fəaliyyətlər, insanın mənəvi qidasıdır. İlk sənət əsəri 77.000 il bundan əvvəl, müasir insanların ilk əcdadları tərəfindən qaya üzərində cızılmış iki ox çubuğudur. Bndan sonar, xüsusilə də XIX əsrdən bəri saysız-hesabsız sənət axımlarının sürətli şəkildə inkişaf etməsi incəsənət muzeylerinin eksponatlarla dolmasına gətirib çıxarmışdır.

Yeni nəslin incəsənətə marağının artması üçün məktəbli şagirdlərin və xalqımızın muzeylərə və teatır tamaşalarına getməsini ənənə halına gətirmək lazımdır. Gürcüstan azərbaycanlılarının incəsənətdən uzaq qalmalarını belə izah etmək olar. Gürcüstan azərbaycanlılarında incəsənətə marağın az olmasının səbəbi məktəblərdə incəsənəti tədris edən müəllim kadrlarının çatışmaması və incəsənət dərslərinin yetərincə keçirilməməsidir. Eyni zamanda xalqın istəməməsi də bu səbəblərdən biridir. Hətta bəzi məktəblərdə incəsənət dərslərinin əvəzinə idman və ya əmək dərslərinin keçrilməsi hallarının mövcudluğu da bizim incəsənətə münasibətimizin yerində olmadığına dəlalət edir. Məktəb kitabxanalarında incəsənətə aid kitabların yetərli olmaması da vəziyyəti ağırlaşdırır. Məktəblər tərəfindən şagirdlərin muzeylərə, qalereyalara ekskursiyaları təşkil edilmədiyndən problem daha da böyüyür. İncəsənət muzeylərinə getmək əvəzinə məktəb şagirdlərinin ekskursiyalarını meşə, sirk və zoopark kimi yerlərdə təşkil etməklə nə qazana bilərik? Regionlarmızda mədəniyyət mərkəzlərinin, musiqi, aktyorluq, rəssamlıq dərnəklərinin az olması, hətta bəzi regionlarda heç olmaması da incəsənətin populyarlaşmasını ləngidir. Sıx-sıx elmi, fəlsəfi, ədəbi və bədii konfransların keçrilməməsi də incəsənətin bir sahə kimi azərbaycanlılar arasında az yayılmasına gətirib çıxarır.

Bildiyimiz kimi, bir millətin formalaşması üçün elminin, ədəbiyyatının və mədəniyyətinin yüksək səviyyədə olması lazımdır. Bu kimi məsələləri düzəltmək bizim cəmiyyətin öz əlindədir, sadəcə istəmək və üzərində çalışmaq lazımdır. Ən azından keçmişdə nənələrimizin xalça toxuculuğu ilə məşğul olduğu kimi, xalça toxuculuğundan başlamaq olar. Xalçaçılığın bir sənət sahəsi kimi inkişaf etdirilməsi üçün bölgəmizin kifayət qədər imkanları var. Yaxın keçmişə qədər azərbaycanlılar yaşayan bölgələrdə xalçaçılıq əsas sahələrdən biri olmuşdur. İtib getməkdə olan bu sahənin dirçəldilməsi hər mənada bölgənin inkişafına öz töhfəsini verə bilər.

Məktəblərmizə ixtisasca incəsənət müəllimlərinin qəbul olunmasını qaydaya salmaq mümkündür. Bu sahədə azərbaycanlı kadrların çatışmaması təbiidir. Vəziyyətdən çıxmaqdan ötrü hələlik gürcü incəsənət mütəxəssislərini məktəblərimizə incəsənətin tədrisini qaydaya salmaq üçün dəvət edə bilərik. Məktəb kitabxanalarında incəsənətə aid kitabların artırlmasını məktəb idarələri təşkil edə bilər. Regionlarmızda ən azından ayda bir dəfə, xalqımızın istəyi ilə teatır tamaşalarının qoyulmasını təşkil etmək mümkündür. Məktəb idarəsi şagirdlər üçün ən azından ildə 3-4 dəfə muzeylərə ekskursiya təşkil edə bilər. Bütün bu sadaladıqlarımız bir adamın, beş adamın işi deyil. Bunu cəmiyyətin istəməsi lazımdır. Xüsusilə də yeni nəsli incəsənətə yönəltmək üçün, ən çox məhsulliyət ailənin və məktəbin üzərinə düşür.

Əli ƏLİYEV

## QARA DƏNİZ SAHİLİNDƏ "GƏLƏCƏYİN DÜŞƏRGƏSİ" AÇILIB

Gənclər və idman nazirliyindən bildiriblər ki, "Gələcəyin düşərgəsi" Gürcüstanın Qara dəniz sahilindəki Anakliya şəhərində iyulun 3-dən yeniyetmələrin ilk dəstəsini qəbul edəcək.

Bütövlükdə proqram çərçivəsində altı dəstəyə ayrılmış 1728 yeniyetmə dincələ biləcək. Seçim zamanı üstünlük yüksək akademik göstəricisi olan şagirdlərə verilir ki, onların arasında da sosial cəhətdən aztəminatlı, məcburi köçkün və çoxuşaqlı ailələrin uşaqları olacaq.

Məlumatda bildirilir: "Layihənin məqsədi Gürcüstanda və ondan kənarda yaşayan gənclərin müxtəlif mədəni-maarif, əyləncəli-düşündürücü tədbirlər yolu ilə fəal istirahətini təmin etməkdir. Həmçinin onların qeyri-formal təhsil almaları, fiziki, mənəvi və intellektual potensiallarının artırmaları, sosial inteqrasiya, sağlam həyat tərzinin populyarlaşdırılması və Gürcüstanda yaşayan etnik azlıqların inteqrasiyasına kömək etməyə imkan yaratmaq məqsədi güdülür".

"Gələcəyin düşərgəsi"ndə ilk olaraq



Gürcüstan uşaq və məktəbli Milli idman federasiyasının seçdiyi "İdman olimpiadası"nın 228 iştirakçısı istirahət edəcək. Sonra isə Gürcüstan elm və təhsil nazirliyinin seçdiyi 1246, Gürcüstan dövlət nazirliyinin diaspor məsələləri üzrə aparatının seçdiyi 144 və Ədliyyə nazirliyinin seçdiyi 50 yeniyetmə dənizə dincəlməyə gedəcək.

Şagirdlər xüsusi hazırlanmış oyunlarda, diskussiyalarda və insan hüquqları, uşaq hüquqları, ekologiya, gigiyena və Gürcüstan tarixi üzrə praktiki məşğələlərdə iştirak edəcəklər.

Afayət AFİQ



# QAN ÇƏKİR, YOXSA VİCDAN?!

**Haqsızlıq, zülüm kimi qavramlar ümumbəşəridir. Harada, necə və kimə qarşı edilməsinin böyük bir əhəmiyyəti olmamalıdır. Haqqına danışsaq, özümüz də əmin olarıq ki, bu belədir. Harada və hansı formada gerçəkləşdirilməsindən asılı olmayaraq, tutduğumuz mövqenin baxış bucağından asılı olmayaraq, bütün haqsızlıqlara və bütün zülümlərə eyni cür reaksiya verməliyik. Hər zaman haqq naminə, nahaqqa qarşı çıxmağı bacarmalıyıq.**

Fəqət, gerçəkdə belə olmadığını hamımız yaxşı bilirik. Niyə? Dillənməmizə mane olan nələrsə olur. Bəlkə, danışmaq gümüşdürsə susmaq qızıldır prinsipindən çıxış edirik? Əslində yox. Hər zaman yox. Axı bu prinsipin özü də hər zaman, hər yerdə doğru deyil. Bəzən qızıla tamah salmaqdan vaz keçməliyik. Çünki, axı neçə insanın taleyi, lap elə bizim vicdanımızın alnı açıq durması məhz bu gümüşə bağlıdır. Danışmalı, dinməli hətta susqunluğun başını əzməliyik hərdən, nə deyirsiniz?

Zülmə susmaq heç də hər zaman bizim vicdansızlığımızdan, ya da soyuqqanlılığımızdan qaynaqlanmır. Düzdür bəzən laqeydliyin ağuşuna düşə bilirik, lakin əksər hallarda biz zülmə uğramaqdan qorxuruq. Və zülmə susaraq, potensial təhlükələrdən, sabah çiçəklənmə ehtimalı olan bugünkü, zülüm tumurcuqlarından özümüzü sığortalayırıq. Amma, bunların heç biri ən yaxın gələcəkdə eyni şeylərlə qarşılaşmayacağımız zəmanətini vermir. Əminəm, o zaman bizə də susanlar kifayət qədər olacaq. Gələcəklərini oda atmamaq üçün yanğınımıza su tökməkdən boyun qaçıranlar, hətta alovumuzun istisinə isinənlər boğaza qədər çıxacaq. Bu taleyin bizim laqeydliyimizə cavabı olacaq. Bəri başdan başımıza gələnləri bilsək, pis olmaz deyə düşünürəm. Biz zülümkarın boyundan, gücündən asılı olaraq arada dillənə də bilirik. İnsan oğlunda bu qabiliyyət gözəl inkişaf edib, sərf edəndə susmağı da , lazım gələndə susqunluğu pozmağı da yaxşı bilir. Bunlar hesablanmış, planlaşdırılmış işlərdir. İstəyirsən, qərar verirsən və edirsən, ya da etmirsən...

Bir də medalın o biri üzü var, səndən icazə almayan reflekslərin, hərəkətlərin... Bu anı sevirəm mən. Vicdana məğlub olduğun andır bu. Lakin bu məğlubiyyətin içində böyük bir qələbə gizlənir. Dadı ötəri olmayan qələbə. Vicdana məğlub olub dillənirsən, çilədən çıxırsan. Bu dəm ağlının, məntiqinin, qorxularının sənin üzərində qurduğu hakimiyyət yıxılır. O zalım şahın taxtı elə bu dəm tarac olur. Peşmanlıq duymayacaqsan, insan oğlu, əmin ol...

**Keçdiyimiz bir neçə həftə ərzində sosial şəbəkələrdən tutmuş yazılı mətbuata qədər – hər yerdə Çin və Çinin uyğurlara etdiyi zülüm haqqında xəbərlər, şəkillər, videolar dolaşır. Və təbii ki, bunlar bizə qədər gəlib çata bilir. Görürük. İzləyirik. Ara-sıra gənclər Çinə qarşı müxtəlif tədbir təşəbbüsləri ilə çıxış edir. Kimin gücü nəyə çatırsa, nəyi bacarırsa. Çünki susa bilmirik. Qanımıza toxunur. Onlar türkdür, onlar müsəlmandır. Deyilənə görə, onları elə bu səbəbdən zülmə düçar edirlər. Bu fikir bizi dinc buraxmır. Əsəblərimizi korlayır. Boğazımızı düyünləndirir. Özümüzə sığışdıra bilmirik. Haqlıyıq, etiraz etmək ən təbii haqqımızdır. Doğrudur, az qala əhalisi iki milyarda yaxınlaşan Çin bizdən qorxası deyil bəlkə də, ancaq bu dillənməməyimizə də haqq qazandırmır. Rəsmi göstəricilərə görə, 2000 ildir ki, Çin əhalisinin sayına görə dünyada birinci yerdədir. Dünya əhalisinin hər beşindən biri çinlidir. Lakin yenə də qorxmuruq, etiraz edirik. Yerin qulağı var fikrini də qulaqardı edib bu ölkəyə, bu xalqa etirazımızı bildiririk. Gürcüstanda sayı sayımıza çatan çinlilərin düyü yedikləri çubuğu gətirib böyrümüzə sancması ehtimalına, ümumiyyətlə, əhəmiyyət vermirik. Amma, o zülmü çəkən başqası olsaydı, hansısa hindu tayfası olsaydı, məsələn, dillənərdikmi? Eyni qəddarlığa, ünvanı dəyişəcəyi təqdirdə eyni cavabı, eyni narahatlığı göstərə bilərikmi? Niyəsə inanmıram. Niyəsə, bizi həqiqətə vicdandan çox, qanın çəkdiyini düşünürəm. Vicdan isə din , dil, əqidə, millət, irq anlayışından uzaq olmalıdır... Vicdan bütün bunlardan arınmış olmalı, bəşəriyyətə eyni gözlə baxmalıdır... Vicdan göylərdən, bütün dünyanı görə biləcək qədər uzaq göylərdən baxmalıdır...**



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

# QAZANCIN HALALI HAMIYA YETƏR

**Dünya yaranan gündən bu yana insalıq tarixində fitri olaraq bir ehtiyac var ki, bu da keçimini təmin etmək üçün qazanc əldə etməkdir. Ancaq bu qazanc elə olmalıdır ki, Allahın əmri olan "Ey iman edənlər! Sizə verdiyimiz azuqələrin halal və xoş olanlarından yeyin." (Bəqərə,172) ayəti ilə üst-üstə düşsün. Çünki haram insanı pis yollara sürükləyir. Allah möminlərə və Peyğəmbərlərə əmr etdi və belə buyurdu: "Ey iman gətirənlər! Halal olan şeylərdən yeyin və saleh əməllər işləyin. Çünki Mən sizin etdiklərinizi çox yaxşı bilirəm." (Mu'minun, 51) Bir başqa ayədə də: "Mallarınızı aranızda haqsız səbəblərlə yeməyin. Özünüz bilib dayanarkən, insanların mallarından bir qisimini, yalan and və şahidlik ilə yeməniz üçün o malları hakimlərə (rəislərə, səlahiyyətli idarəçilərə, məhkəmə hakimlərinə əl altından) verməyin."(Bəqərə, 188) "Yerdə sizin üçün dolanışıq vasitələri yaratdıq." (Hicr, 20) "Namaz bitincə yer üzünə dağılın və Allahın lütfündən istəyin." (Cümə, 10) Bu ayələr bizə halal və təmiz ruzilərdən istifadə etməmizi, haram yollara müraciət etməməmizi, yer üzündə bir çox halal və dolanışıq vasitələrinin olduğunu, yer üzünə dağılıb Allahın lütfündən bunları istəməmizi əmr etməkdədir.**

Haramlardan qaçmaq kimi, halal qazanc təmin etmək də fərz bir əmrdir. Hədisi şəriflərdə belə buyrulmuşdur: "Ən fəzilətli əməl halal qazancdır." "Ən təmiz və üstün qazanc, adamın əl əməyi və hər cür dürüst alış-verişdən qazandığıdır." "Halalın nə olduğunu öyrənib onu qazanmağa çalışmaq hər müsəlmana vacib (lazımlı) dir." "Ey insanlar! Allahdan qorxun və (dünyalığı) istəmə barəsində münasib olun (hər cür ifrat və təfritdən çəkinin). Çünki ruzisi geciksə belə hamısını almadıqca heç bir nəfs ölməyəcək. O halda (ruzi tələbində) Allahdan qorxun və halal olanı alın, haram olanı tərk edin." Hədis, dünya malını və ruzini əldə edərkən münasib olmağı, yəni tələbdə (işdə, istəmədə, qazanmada) qüsur etməməyi və aşırı ehtirasa da qapılmamağı, bunu qanuni və halal yolla qazanmağı əmr etməkdədir. Uca Kitabımızda Allah Təalanın faizi batıracağı, sədəqələri artıracağı (Bəqərə, 276) bildirilmişdir. Hədisi şərifdə isə ancaq halal maldan verilən sədəqələrin qəbul ediləcəyi və qiymətləndiriləcəyi, haramların qəbul edilməyəcəyi belə ifadə edilmişdir: "Kim halal qazancından bir xurma qədər sədəqə versə, ki, Allah, halaldan başqasını qəbul etməz – Allah o sədəqəni qəbul edər. Sonra onu dağ kimi olana qədər hər hansı birinizin tayını böyütdüyü kimi, sahibi adına qayğıyla böyüdər." "Halal (ruzi) axtarmaq dini öhdəçiliklərdən bir fərzdir." "Şübhəsiz Allah Təala, halal ruzini axtarma yolunda qulunu yorğun düşmüş görməkdən xoşlanar." Qurani Kərimdə də belə buyurulmuşdur: "Ey iman edənlər! Allahın sizə halal etdiyi yaxşı və təmiz şeyləri (siz özünüzə) haram etməyin və həddi aşmayın. Allah həddini aşanları sevməz. Allahın sizə vermiş olduğu halal və təmiz ruzilərdən yeyin və özünə iman etmiş olduğunuz Allahdan qorxun" (Maidə, 87-88).

Hz. Peyğəmbər belə xəbərdar etmişdir: "Elə bir zaman gələcəkdir ki, adam malını halaldanmı, haramdanmı əldə etdiyinə əhəmiyyət verməyəcək". Əsas məsələ pul qazanmaq deyil, halal qazanmaq olmalıdır. Haramda xeyir yoxdur, bərəkət yoxdur. Ibrahim Ədhəm: "Mədələrinə girənlərin halalmı, harammı olduğunu araşdıranlar iman baxımından yüksələrlər. Qazanclarının halallığını düşünmədən dünyalıq arxasınca qaçanlar isə əvvəl mədə fəsadına uğrayarlar, sonra da dinclikləri qaçar, mənən yüksələ bilməz, alçalarlar. Nə ibadətlərinin, nə də etdikləri yaxşılıqların zövqünə çata bilərlər." Abdullah bin Ömər (r.ə) isə: "Namaz qılmaqdan yay kimi, oruc tutmaqdan mismar kimi olsanız da haram və şübhəli şeylərdən qaçmasanız, Allah o ibadətləri qəbul etməz", – demişdir. Hz. Əbu Bəkir (r.ə) köləsinin gətirdiyi süddən içdi və dərhal köləsinə dönərək: "Bunu haradan aldın?", – deyə soruşdu. Kölə: "Kahinlik etdim, yəni qeybdən bəzi xəbərlər verdim də ödəniş olaraq bu südü aldım", – dedi. Bunun üzərinə Əbu Bəkir (r.ə), içdiyi südü mədəsindən çıxarmaq üçün barmağını boğazına saldı və boğulacaq şəkildə istifra edərək, çıxarmağa çalışdı, sonra da: "Allahım, mədəmdə qalıb damarlarıma qarışan qisimindən sənə sığınıram", – dedi.

**Haramlar, Allah Təala ilə qullarının arasına girər və dualarının qəbuluna mane olar. Bunun üçün Allah Təala, əvvəl halal yeməyi, arxasından da saleh əməlləri işləməyi əmr etməkdədir. Hz. Peyğəmbər (s.ə.s) belə buyuraraq xəbərdar etmişdir: "Bəslənəcəyin şeyləri halal və təmiz et ki, duaların qəbul olsun". Şeytan haram yeyənlərin dostudur. Şeytan onları qəflətə, günaha göndərər, ibadətlərdən uzaqlaşdırar.**

## GÜRCÜSTANDA DİNİ SİYASƏTİN TƏDQİQİ MƏRKƏZİ YARADILIR



Tbilisidə hökumət dəftərxanasında dini məsələlər üzrə Gürcüstan Dövlət agentliyinin əməkdaşları ilə 11 universitetin nümayəndələrinin görüşü olmuş, əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Görüşdə dini məsələlərin akademik elmi araşdırmalara cəlb olunmasının vacibliyi vurğulanmışdır. Dini siyasətin tədqiqi Dövlət mərkəzinin yaradılması haqqında qərar da qəbul olunmuşdur. Bu məqsədlə hər universitetdən bir nəfər olmaqla koordinasiya şurası yaradılmış və işlənəcək mövzuların siyahısı tərtib edilmişdir.

Dini məsələlər üzrə agentlikdə bildirmişlər ki: "Dövlətlə dinin qarşılıqlı münasibətləri dərin müzakirə tələb edir. Bunun üçünsə həm tarixi təcrübənin, həm də gələcək məqsədin düzgün qoyuluşu tələb olunur".

Görüşdə Gürcüstan Texniki Universiteti, İvane Cavaxişvili adına TDU, Qriqori Robakidze adına Universitet, Gürcüstan DİN Akademiyası, müqəddəs Andrey Pervozvannıy adına Patriarxiya Universiteti, Qafqaz Beynəlxalq Universiteti, Quram Tavartkiladze Tədris Universiteti, Akaki Sereteli adına Kutaisi Dövlət Universiteti, Qori Dövlət Tədris Universiteti və Şota Rustaveli adına Batumi Dövlət Universitetinin nümayəndələri iştirak etmişlər.

## ACARADA MÜSƏLMAN MÜFTİLİYİNƏ 6 MƏSCİD VERİLDİ

Müsəlmanların tələbi yerinə yetirilib. Dini birliklərin əmlak və maliyyə məsələlərini öyrənən komissiyanın dördüncü iclasının qərarı ilə acar müsəlmanlarına 6 məscid verilmişdir. Qeyd etmək lazımdır ki, Xulo kənd müftisinin bəyanatına görə, munuspalitetdə xalqın və müftiliyin vəsaiti ilə tikilmiş 44 məscid var və illər ərzində həmin məscidlərin müsəlmanlara verilməsi tələb olunsa da, nəticəsiz qalır.Komissiyanın iclasında Batumidəki Erməni Apostol kilsəsinə torpaq sahəsi verilməsi ilə bağlı məsələ də həllini tapıb.

İclasda həmçinin Gürcüstan pravoslav kilsəsi tərəfindən təqdim olunan 50 ərizəyə baxılmış, onlardan yeddisinə rədd cavabı verilmiş, 27-si müsbət həll edilmiş, 16 ərizədə yanlışlıq olduğu qeyd edilmişdir.

## SXİNVALİDƏ GÜRCÜ MƏBƏDLƏRİNİ MƏHV EDİRLƏR



Gürcüstanın işğal olunmuş Sxinvali regionunda XII-XIII əsrlərdə inşa olunmuş və YUNESKO tərəfindən beynəlxalq əhəmiyyətli abidə kimi tanınmış Tir monastrı yerli fəhlələrin qurbanına çevrilmişdir.

Yayılan məlumatda bildirilir ki, bir neçə fəhlə əsas məbədin içərisində inşaat körpüsü qururaq, nadir freskaların bəzədiyi divarlara suvaq çəkirlər. Təmirçilər adi inşaat briqadasından heç nəyləri ilə fərqlənmirlər.

Görülən işin məqsədi və sifarişçisi haqqında "Sputnik"in müxbirinin sualına fəhlələr "Sxinvali kilsəsi"nin göstərişi ilə monastrı təmir etməyə hazırlaşırıq cavabını vermişlər.

Qondarma "Alan yeparxiyası"nın keşişi Simon məlumat vermişdir ki, Tir monastrında gedən işlər haqqında nə ona, nə də yeparxiyanın rəhbərliyinə heç nə məlum deyil. Onun sözlərini "Sxinvali kilsəsi"nin keşişi İakov da təsdiq etmişdir. Gedən işlər barədə Sxinvali "Mədəniyyət nazirliyi"ndə də heç nə bilmirlər. Abidələrin mühafizəsi şöbəsinin rəhbəri Nelli Tabueva "təmir" barədə ilk dəfə eşitdiyini bildirdi. Bundan sonra o, vəziyyəti aydınlaşdırmaq üçün təcili monastra yola düşdü.

Monastrda gedən işlər barədə qondarma rejimin dini işlər üzrə rəhbəri Sonya Xubaevanın da xəbəri yoxdur. Sxinvali rayon administrasiyası başçısının müavini Valeri Bibilov bildirib ki, monastrda kimlərinsə işlədiyindən xəbəri var, lakin dəqiq kimlərin və kimin göstərişi ilə iş görüldüyündən xəbəri yoxdur.Artıq monastrda işlər "Mədəniyyət nazirliyi"nin göstərişi ilə dayandırılıb. Sözü gedən idarə məbədi kimin və nəyə görə təmir etməyə başlamasını aydınlaşdırır.

Belə məlum olub ki, Tir monastrını və daha iki abidəni – İkorta və Qomarta kilsələrini "Uyut" podrat müəssisəsi təmir edir. Müəssisənin rəhbəri Alan Tasoyevin sözlərinə görə, İkorta və Qomarti kilsələrində də artıq işlərə start verilib.

## KABULETİDƏ MÜSƏLMAN PANSİONU QARŞISINDA ETİRAZ AKSİYASI KEÇİRİLİB

İyulun 7-də pravoslav dindarlar Kabuletidə Lermontov küçəsindəki müsəlman pansionu qarşısında etiraz aksiyası keçiriblər.

"Acarıstanda dini azlıq Türkiyənin maliyyə yardımı ilə dini çoxluğu sıxışdırır" – yerli əhali belə şüarlarla pansionun qarşısına toplaşıblar.

"İPN"-nin məlumatına görə, toplaşanlar Batumi şəhər məhkəməsinin hakimi Xatuna Bolkvadzeni və məhkəmənin digər hakimlərini pansionun yaxınlığına dəvət etmişlər.

Məhkəmə müsəlman pansionu ilə bağlı problemi yerindəcə araşdırmalıdır. Məlumdur ki, hələ bir neçə ay qabaq yerli sakinlər pansionun qapısına donuz başı mıxlamışdılar. İş məhkəməyə göndərilmişdir.

## TƏHSİL PROBLEMLƏRİMİZ VƏ ONDAN ÇIXIŞ YOLLARI



*Bu yaxınlarda İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində yeddinci Regionlararası tələbə konfransı keçirildi. Mən də iştirak etmək qərarı aldım. Çox götür-qoy etdim ki, hansı mövzu haqqında yazım. Və qərara gəldim ki, "Gürcüstanda yaşayan qeyri-gürcülərin təhsil problemləri" mövzusunda nəsə yazım. Mövzu üçün araşdırmalar apardım, kəndlərə getdim və sonunda yazmağa başladım. Mövzumun məzmunu qısaca belə idi: Gürcüstan kəndlərinin ilkin problemi elə uşaq bağçasından başlayır.*

Kəndlərdə uşaq bağçaları mövcud deyil. Şəhər və rayon məktəblərində bağçaya getməyən uşağı məktəbə götürmürlər, amma kəndlərdə buna nəzər yetirən yoxdur. Uşaq məktəbə daxil olan kimi problemlərlə qarşılaşır. Ondan Azərbaycan dili ilə yanaşı, dövlət dilini, ingilis dilini, kompüter proqramlarını, riyaziyyatı öyrənməsini tələb edirlər. Əfsus ki, kəndlərdə ailələr var ki, uşağının üstündə durub oxuda bilmir, bununla da uşaq təhsil həyatını başlamadan bitirir.Misal olaraq Sadaxlı kəndini göstərə bilərəm. Sadaxlı ətrafında olan kəndlərlə birlikdə 14000 əhalisi olan kənddir, amma uşaq bağçası yoxdur.

Sonra gəlir məktəblərdə kitab problemləri.

Hamıya məlumdur ki, son bir neçə ilə qədər Gürcüstandakı azərbaycandilli məktəblərə kitablar Azərbaycandan gəlirdi. Amma son zamanlar dərslik kimi Gürcüstanda tərcümə olunan kitablardan istifadə olunmağa başlandı. Tərcümələr isə bərbad vəziyyətdədir. Uşaqlar oxuduqları cümlələri başa düşsələr verilmiş çalışmaları həll edə bilərlər. əfsus ki, dərsliklər çox pis tərcümə olunduğuna görə anlamaq qeyrimümkümdür.

Elm və təhsil nazirliyi tərəfindən məktəblərə yoxlamalar göndərilir ,lakin onlar yalnız gürcü dili dərslərinə nəzarət edirlər, Azərbaycan dilində olan dərslər isə kənarda qalır. Statistikaya əsasən attestat imtahanları kompüter sisteminə keçdikdən sonra məktəbi bitirən şagirdlər ən çox fizika, kimya, biologia kimi fənlərdən kəsilirlər.

Yuxarıda da qeyd etdiyim kimi bu, həm doğru tərcümə edilməmiş kitablardan, həm də dərslərə nəzarətsizlikdən irəli gələn bir problemdir.

Üçüncü problem kitabsızlıq problemidir ki, burada da vəziyyətimiz acınacaqlıdır. Kəndlərdə kitabxanalar mövcud deyil, olanlar isə kitab baxımından çox kasıbdırlar. Burada olan kitablar sovet dönəmindən qalan rus kitablarıdır, ya da kiril əlifbası ilə yazılan kitablardır. Gənclərimiz demək olar ki, kiril əlifbasını tanımırlar. Bu səbəbdən də deyə bilərik ki, kəndlərdə bədii ədəbiyyat oxunmur. Dünya ədəbiyyatı o yana dursun, heç Azərbaycan ədəbiyyatını belə bilmirlər, yeni nəsil yazarları, şairləri tanımır. Gürcü dilli kitabları oxumurlar, çünki dil baryeri var. Və beləliklə də kitabsızlıq problemi baş alıb gedir.

Sonra gəlir ali təhsil problemi.

Məlum məsələdir ki, son bir necə ilə qədər Gürcüstanda yaşayan azərbaycanlılar təhsil almaq üçün ya Azərbaycana, ya da ki Türkiyəyə gedirdilər. Bu problemi aradan qaldırmaq məqsədi ilə Təhsil Nazirliyi tərəfindən bir layihə hazırlandı və layihə "1+4" adlandırıldı. Bu layihə çərçivəsində qeyri-gürcülər ali təhsil almaq üçün öz ana dillərində umumiqabiliyyət imtahanı verməklə ali məktəblərdə gürcü dili üzrə hazırlıq kurslarına qəbul oluna bilirlər.

Onu da qeyd etmək istəyirəm ki, burada təhsil alan tələbələr arasında elələri var ki, gürcücə adını-soyadını zorla yaza bilir. Təbii ki, çox güclü tələbələr də var, söhbət onların müəyyən qismindən gedir. Bir ildən sonra gürcü dilini bilməsi haqqında sertifikat alıb daxili imtahanla universitetin istənilən fakultəsinə keçmək mümkündür. Fakultədə isə vəziyyət daha acınacaqlıdır. Onlar gürcüdilli məktəbi bitirmiş, 4 imtahan vermiş uşaqlarla eyni auditoriyalarda oturmalı olurlar. Qeyrigürcü tələbələr lektorun dediyinin yarısını anlamırlar. Bu isə artıq bəzi lektorlarda və gürcüdilli tələbələrdə qeyrigürcülərə qarşı inamsızlıq yaradır.

Biz məcburuq ki, fakultədə tədris olunan bütün fənnləri keçək, amma bu fənlər barədə kiçik bir məlumatımız da olmur. Biz gürcülərdən həmişə bir addım geridə qalırıq ki, bu da semestrin sonunda bir neçə fəndən kəsilmək deməkdir. Kəsri çox olan uşaqlar məcbur olurlar ki, universitetdən çıxsınlar. Çıxmasalar belə 4 illik təhsil proqramını 6-7 ildə bitirməyə məcburdurlar. Düzdür, yaxşı oxuyan və yüksək qiymət alan, hətta prezident təqaüdü alan tələbələrimiz də var.

Şəxsən mənim gördüyüm ən başlıca problem bunlardır.Təbii ki, bununla bağlı öz düşüncələrim var. Bəs vəziyyətdən necə çıxmaq olar?

Təcili surətdə kəndlərdə uşaq bağçaları açılmalıdır.

Kitabların tərcümə edilməsi üçün yeni kadrlar yetişdirilməlidir.

Fənn müəllimləri öz ana dillərində sertifikat imtahanı verməlidirlər.

Gürcüstan və Azərbaycan arasında bədii, elmi və b. kitabların gətirilməsi ilə bağlı müzakirələr aparılmalı, kəndlərə Azərbaycandan və Tbilisidən iki dilli kitablar gətirilməlidir. Bu yolla biz kitabsızlıq problemini müəyyən qədər aradan qaldırmış olarıq.

"1+4" proqramı çərçivəsində tələbələr heç olmasa gürcü dilində B2 səviyyəsində imtahan verməlidirlər ki, universitetlərdə acınacaqlı vəziyyət yaranmasın.

**Göstərdiyim bu problemlər və bu problemlərdən çıxış yolları barədə fikirlərimin necə qəbul olunacağını dəqiq bilməsəm də, düşünürəm ki, bu problemlərə ciddi yanaşmaq lazımdır.**

Nübar BAYRAM

Elsevər ELDAROĞLU
elseverahmedov88@gmail.com



## HƏYATIMIZIN HƏR SAHƏSİNƏ GİRMİŞ İNTERNETİN ZƏRƏRLƏRİ

**İnternet artıq hamımızın həyatının bir parçasına çevrilib. Xüsusilə mobil texnologiyaların inkişafı sayəsində harada olmamızdan asılı olmayaraq, şəbəkə dairəsindən kənara çıxmasaq mütləq cib telefonlarımızdan, ya da kompüterlərimizdən internetə sərhədsiz bağlana bilərik.**

**İnternet məlumat paylaşması olaraq diqqətə alındıqda olduqca faydalı bir quruluşdur. Artıq internet vasitəsilə azad fikirlər ortaya atılır, yeni cəhdlər edilir və hətta alqı-satqı həyata keçirilir. Normal həyatda edə bildiklərimizi artıq internet üzərindən də edə biləcək bir vəziyyətə gəlmişik. Çünki, xüsusilə də 2000-ci illərin başlanğıcından texnologiya həm inkişaf etdi, həm də çox ucuzlaşaraq əksəriyyətin ala biləcəyi əşyaya çevrildi.**

Yaxşı, bəs internetin zərərləri nələrdir? Bunu heç düşünürükmü? Bu zərərlərdən bir qismini aşağıda sıralamağa cəhd edək.

VAXT İTKİSİ. İnternetdə lazım olandan çox bir şəkildə edilən gəzinti, insanların ictimai həyatlarından oğurladıqları zaman olaraq ortaya çıxar. Məqbul bir müddət ərzində internetə daxil olmaq və özünə lazım gələni əldə etmək mümkündür. Lakin bu əməliyyatdan sonra internetdə vaxt keçirmək, onu boş yerə xərcləmək şəxsin həyatında müxtəlif problemlərin yaranmasına səbəb olmaya bilməz.

KOBUDLUQ. Xüsusilə uşaqlar və gənclər arasında məşhur olan və ictimai media saytları vasitəsilə reallaşan kobudluq nəticəsində psixoloji problemlər yaşanmaqdadır. Bəzi hallarda isə bu intihara qədər gedib çıxa bilər.

İnternetdə faydalı saytlarla yanaşı, bir çox zərərli saytlar da mövcuddur. Zərərli veb saytlarındakı məzmunlar səbəbi ilə, əsasən uşaqların və yeniyetmələrin ruhi inkişafları mənfi bir şəkildə təsirlənə bilər.

İnternet vasitəsilə ictimai media saytlarının təşviq etdiyi oyunların oynanılması adamları tənbəlliyə itələyə bilər. Həyata keçirilməsi lazım olan işlərin ya kecikdirilməsinə, ya da heç yerinə yetirilməməsinə səbəbiyyət verə bilər.

İnternet vasitəsilə hər nə qədər qadağan olunsa da, asanlıqla qumar və bəhs saytlarına daxil olmaq mümkündür. Bunun nəticəsi olaraq da böyük miqdarda pul itkisi ailədaxili fəlakətlərə gətirib çıxara bilər.

Bank əməliyyatlarının da internet vasitəsilə həyata keçirilməsi bir çox problemlərin ortaya çıxmasına səbəb olur. Belə ki, müxtəlif üsullarla istifadəçilərin şifrələrinin ələ keçərilməsi fırıldaqçılıq hadisələrinin gündən günə artmasını sürətləndirir.

Uzun müddət internetdə zaman keçirmək eyni zamanda adamda fiziki narahatlıqlara da yol aça bilməkdədir.

İnternet istifadəsinin artması ilə birlikdə, fəaliyyətləri cəmiyyətə qarşı yönəlmiş şəxslərin sayları da müvafiq olaraq durmadan artmaqdadır. Bu səbəblə bütün həyatınızı internetdə keçirməyə bir ehtiyac varmı? Düşünürəm ki, yox! İnsan internetdən müyyən mənada faydalanmaq üçün istifadə etməli, vaxtının qədrini bilməlidir.

İnternetmaniya olaraq dəyərləndirə biləcəyimiz bir halın yaranması da qaçılmazdır. Belə ki, insan yuxudan oyanar-oyanmaz, bir növ narahatlıq içərisində internetə girmək istəyirsə, xüsusilə özündə ictimai media hesablarına nəzarət etmək zəruriliyi hiss edirsə artıq həmin şəxsdə bir internet asılılığının yaranmasından danışmaq lazım gəlir. Uyuşdurucu – narkotik maddə asılıları kimi, bu kəslərin də xüsusi müalicə kursu keçmələri lazım gələ bilər ki, bu da onun özlərinin və ailələrinin ciddi maddi-mənəvi narahatlığı deməkdir.

**Onu da qeyd edim ki, dünyanın müxtləlif ölkələrində kompüterdən fasiləsiz olaraq istifadə edən şəxslərin bir çoxunun tromb xəstləliyindən dünyasını dəyişmələri barədə çoxsaylı təkzibolunmaz faktlar var. O üzdən də insan canının və vaxtının qədrini bilməli, lazım gəldi, gəlmədi internetdə ömrünü çürütməməlidir.**

HAQQIN SÖZÜ–SÖZÜN HAQQI.

# Yeni YOL

15 iyul 2015-ci il
№003 (03)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “გზა” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## İSTANBULDA 12 BATUMİLİ RƏSSAMIN SƏRGİSİ TƏŞKİL EDİLİB



2015-ci ilin iyulun 3-də Türkiyə Baş konsulluğunun təşkilatçılığı ilə İstanbulda 12 batumili rəssamın sərgisi təşkil edilib. Sərgini İstanbul bələdiyyəsinin başçısı Kadir Topbaş və Acarıstan Muxtar Respublikasının təhsil, mədəniyyət və idman naziri Giorgi Tavamaişvili açıblar. İstanbul şəhər incəsənət qalereyasında Batumili rəssamların 130-a qədər əsəri nümayiş etdirilib. Sərgiyə 13 iyula qədər baxış keçirilib. Layihə çərçivəsində, İstanbulda olduqları müddətdə rəssamlar İstanbulun mədəni və tarixi yerlərini kətana köçürüblər. Sərginin açılışında həmçinin Batumi meri Giorgi Yermakov və Türkiyənin Batumidəki baş konsulu Yasin Demirkan da iştirak edib.

## სტამბოლში 12 ბათუმელი მხატვრის გამოფენა მოეწყო

2015 წლის 3 ივლისს, ქ. სტამბოლში, თურქეთის გენერალური საკონსულოს ორგანიზებით 12 ბათუმელი მხატვრის გამოფენა მოეწყო. გამოფენა აჭარის ავტონომიური რესპუბლიკის განათლების, კულტურისა და სპორტის მინისტრმა გიორგი თავამაიშვილმა და ქ.სტამბოლის მერმა ქადირ თოფბაშმა გახსნეს.

ქ. სტამბოლში ხელოვნების გალერეაში წარმოდგენილი იყო ბათუმელი მხატვრების 130- მდე ნამუშევარი. გამოფენა 13 ივლისამდე გაგრძელდა.

პროექტის ფარგლებში სტამბოლში ყოფნის პერიოდში ბათუმელი მხატვრები ტილოზე გადაიტანენ სტამბოლის კულტურულ და ისტორიულ ღირსშესანიშნაობებს.

გამოფენის გახსნას ასევე, ქ.ბათუმის მერი გიორგი ერმაკოვი და ქ.ბათუმში თურქეთის გენერალური კონსული იასინ თემიზქანი ესწრებოდნენ.

## 13 YAŞLI AZƏRBAYCANLI UŞAĞIN HEYRƏTLƏNDİRİCİ İXTİRASI



İnsan əli işığı ötürücü vasitəsi ilə robota göndərir, robotun ultrabənövşəyi şüaları işığı görür və insan əlinə ötürür, ultrabənövşəyi şüalar insan əlinə çatan kimi yenidən robotun ötürücüsünə qayıdır və o, həmin yerdə obyektin olduğunu müəyyən edir. 13 yaşlı İkram Qabiyevin ixtira etdiyi bu robot İnformatika Layihə Olimpiadasında təqdim ediləcək.

Gənc ixtiraçının əsas layihəsi isə hələ qarşıdadır. 9-cu sinif şagirdi müalicəsi çox vaxt mümkün olmayan beyin xərçənginin yeni müalicə üsulunu ixtira etməyə iddialıdır. İlk dəfə amerikalı alimin irəli sürdüyü bu üsul cəmiyyət tərəfindən birmənalı qarşılanmadığından, elə nəzəriyyə olaraq qalıb. Lakin 13 yaşlı İkram bu layihəni davam etdirmək niyyətindədir.

Artıq o, “ximera” adlı yeni virusu ixtira etmək məqsədi ilə Bakı Dövlət Universitetinin müvafiq laboratoriyasından istifadə etmək üçün razılıq da alıb. İkram Qabiyev deyir ki, xərçəng xəstəliyinə aid kifayət qədər məlumat toplayıb. Onun sözlərinə görə, üzərində işlədiyi üsul xərçəng xəstəliyinə düçar olan hüceyrələrdə formalaşan maddəni məhv edəcək.

İkram Qabiyev yeni ixtirasını bu ilin sonuna kimi tamamlamağı planlaşdırır. Gələcəkdə isə kompüter və bəzi elektron cihazlarda istifadə edilə biləcək daha mürəkkəb süni intellekt layihəsi üzərində çalışmağı düşünür. Onun ixtiraları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

## MARNEULİDƏ AZƏRBAYCAN DİLİNDƏ RADİO FƏALİYYƏTƏ BAŞLAYIR




Gürcüstanda azərbaycanlıların sıx yaşadığı bölgələrdən biri olan Marneulidə azərbaycandilli yeni radio efirə çıxacaq. “Marneuli” radiosu verlişləri gürcü, Azərbaycan və rus dillərində hazırlamağı planlaşdırır.

Radioverlişləri üç dildə hazırlamaqda əsas məqsəd Marneuli əhalisinin ictimai fəallığını yüksəltmək, vətəndaş cəmiyyətini möhkəmləndirmək və məlumat boşluğunu aradan qaldırmaqdır. Yaxın zamanlarda öz verlişlərinə başlayacaq “Marneuli” radiosu bölgədə yaşayan əhalinin istəklərinə uyğun müxtəlif mövzuları işıqlandırmağı düşünür.

Layihəni Gürcüstanda fəaliyyət göstərən “Re” studiyası və BBC-nin Gürcüstandakı nümayəndəliyi gerçəkləşdirəcək.

Radionun əsasını qoyanlardan biri olan Kamilə Məmmədovanın sözlərinə görə, radio layihəsi “Xalqın səsi” jurnalistlər birliyinə məxsusdur. Fəaliyyətə başlayacaq radioda ilk olaraq 10 jurnalist işləyəcək. Kamilə Məmmədova qeyd etmişdir ki: “Radio yalnız Marneuli rayonunda yayılacaq. İşçiləri müsabiqə əsasında seçəcəyik. Seçimlə xüsusi komissiya məşğul olacaq. Kadrların seçilməsində yaş məhdudiyyəti olmayacaq. Biz radioda işləmək istəyən şəxslərin məqsəd və ideyalarını, eləcə də onların peşəkarlığını vacib sayırıq. Seçim komissiyasının üzvləri Gürcüstanda jurnalistika sahəsində çalışan şəxslərdən ibarətdir. Seçilmiş kadrlar üçün iyulun 19-dan treninqlər təşkil etməyi düşünürük”.

“Marneuli” radiosu lisenziya alanadək fəaliyyətini internet vasitəsilə həyata keçirmək niyyətindədir.

## KUBA TİBDƏ BÖYÜK ÇEVRİLİŞƏ İMZA ATDI



Kuba mütəxəssisləri İİV-in (İnsanda immunçatışmazlığı virusu) anadan övladına keçməsinin qarşısını almağın yolunu tapıblar. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) da əldə edilmiş nəticəni yoxlamaq üçün Panamerikan Səhiyyə Təşkilatı (PAHO) ilə birlikdə Kubaya nümayəndə heyəti göndərib və ölkənin bütün meyarlara cavab verdiyini təsdiqləyib. Təşkilat öz hesabatında Kubanın anadan övladına keçərək yoluxan İİV-in yayılmasını durduran ilk ölkə olduğunu bildirib.

"Kubanın əldə etdiyi nailiyyət ümumbəşəri sağlamlığın və ona nail olmağın mümkün olduğunu sübut etdi. Bu həm də İİV kimi təhlükəli viruslarla mübarizədə açar ola bilər", - deyən PAHO-nun direktoru Karissa Etienne bildirib ki, ÜST və PAHO 2010-cu ildən bəri Cənubi Amerika ölkələrində İİV və sifilis virusunun yayılmasının qarşısını almaq üçün xüsusi proqram tətbiq edir.

İİV virusu qan, orqan, toxuma köçürülməsi zamanı, steril olmayan ləvazimatlardan istifadə zamanı və cinsi yolla ötürülür. Nəticədə immun sisteminin müəyyən (CD4) hüceyrələri zədələnir. CD4 hüceyrələrinin qanda miqdarının azalması immun sisteminin zədələnmə dərəcəsi və xəstəliyin mərhələsi haqqında məlumat verir. İİV infeksiyası ləng gedən infeksiyalara aiddir. Yoluxmadan sonra ilk illər ərzində insanın immun sistemi virusa qarşı müqavimət göstərə bilir. Lakin zaman keçdikcə virusun və orqanizmin mübarizəsi immun sistemini zəifldir və bir çox infeksiyalara və bədxassəli şişlərə qarşı insanın həssaslığı artır.

QİÇS isə İİV infesksiyasının son mərhələsidir. Bu virusa yoluxmuş insanların immun-müdafiə sistemi kəskin zəifləyir və onlar bir çox xəstəliklərə asanlıqla tutulurlar. Bu xəstəliklər isə bəzən ölümlə nəticələnir.

Təsisçi:
*“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”*

*Redaktor:*
**Afiq Muxtaroğlu**
*Yayım Direktoru:*
**Hacı Bəkiroğlu**

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.